# Qərbi Azərbaycan həqiqətləri məktəbdə

**Ucar rayon Boyat kənd tam orta məktəbində Elm və Təhsil Nazirliyinin elan etdiyi "Təhsildə könüllü fəaliyyətin təşkili"' qrant müsabiqəsi çərçivəsində hazırlanan "Tariximizin işığında - Qərbi Azərbaycanın izi ilə" kitabının təqdimatı keçirilib.**



Kitabda ölkə üzrə ümumtəhsil orta məktəblərinin XI sinif şagirdləri, peşə və kollec tələbələri arasında Qərbi Azərbaycan mövzusunda təşkil olunmuş esse müsabiqəsinin qaliblərinin yazıları yer alıb.

Tədbirdə şair-publisist Fəxrəddin Meydanlı kitabın əhəmiyyətindən danışıb, onun ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürlərini bildirib. O, məktəbin müsabiqədə qalib gəlmiş 5 şagirdinə – 2-ci yerlər üzrə Zeynəb Babayevaya və Xədicə İsraylovaya, 3-cü yerlər üzrə isə Müzəffər Niftəliyevə, Orucəli İsrayılova və Həmid Nəzərova "Dədə Ələsgər Ocağı"nın mukafatlarını təqdim edib.

***XQ***

Xalq qəzeti.- 2025.- 16 dekabr (№264).- S.14.